# Epoxal roman-dilogiya - ömrün acılı-şirinli illərinin bədii salnaməsi

## və yaxud, xatirə-memuar janrında bədii-audentik roman...



*Qurban BAYRAMOV,*
*tənqidçi-ədəbiyyatşünas*

*(Əvvəli ötən saylarımızda)*

Romanda lokal planla qlobal plan bir-birini təbii şəkildə əvəzləyir. Yəni lokal ədəbisöyləmələrdən ümumi-qlobal plandakı təhkiyyəyə keçid bir-birini kilidləmir, bir-birini şərh edir - kod-açara dönür...Buradan yola çıxaraq daha böyük, qlobal, milli-mənəvi, əxlaqi suallara, erroziyaya məruz qalan mental problemlərə cavab axtarmaqdır.

Romanda ara-sıra görsənən düşündürücü, əsərin ümumi konsepsiyasını, yaxud təqdim olunan məqamı yenidən izah, deşifirə edən, sadələşdirən və ya, aydınlaşdıranədəbi xülasələr və parafrazlar sırası da cəlbedicidir, daxili, gizli ironik gücə malikdir... Məsələn, elmi hadisələrin, problemlərin, ədəbiyyata, siyasi həyata münasibətdəki publisist şərhlər, deyərdim ki, ricətlər, və əsgərlikdəki, oxucuya məlum olmayanhərbi işlərin məzmununu və s. təsvirlərdə bunun ciddi əlamətlərini görürük...

Romanın ideya-estetik qayəsinin bir mahiyyəti də, budur ki, bu qloballaşma epoxasının iflic etdiyi, başını dumanlandırdığı, yeni paradiqmalara meyil edən, insanı bir-birindən uzaqlaşdıran, doğmaları belə bir-birinə yadladıraraq iflic edən bu cəmiyyətin nicatı nədədir? Müəllif birmənalı şəkildə cavab verir: Birlikdə, bir-birinə qayğıda, sevgidə, məhəbbətdə, bir qismət çörəyi bölüşmək istəyində, bir-birinin ruzi təknəsinə göz dikməməkdə... Romanda seçilən bu motivasiyalar xilas kimi düşünülüb. Müəllif sosial - ağır məişət motivini, eləcə də qloballaşan - genişlənən əxlaqi-mənəvi problemləri çağın dərd-səri sırasından qələmə alsa da, onlara dirəniş faktı kimi insanlıq faktorunu önə çəkir. Yəni, bütün həyat çətinliklərinə baxmayaraq, mənən güclü, mental dəyərlərə söykənən insan sarsılmazdır, ruhən güclüdür və o, hər cür çətinliyin öhdəsindən gələrək milli mənəviyyatı qoruyan, yeniləşən həyatı yaratmaq əzmindədir. Ultramodern təzyiqlərə məruz qalan, getdikcə "milli dəyərlər" adlı müqəddəs təlimdən uzaqlaşan cəmiyyətimizin mükəmməl milli, əxlaqi, mənəvi, dini birlik modellərinə hər zaman ehtiyacı var: "Dirilik birlikdədir!!"

Məmməd Əliyevin memuar-roman-dilogiyası özündə müxtəlif zaman qatlarını ehtiva edir. Keçmişin yaddaşı, indinin müasirliyi, bir də mətnin özündən ortaya çıxan, müəllifin özünün yaratdığı daxili zaman... Özü də, yazıçı bu zamanlarla davranışda olduqca sərbəstdir. Həmçinin təhkiyəçinin cəsarət bə bacarıqla zamanın gedişatına təsir göstərən xarakteri istənilən məqamda əsərdə yaşanılan retrospeksiya, nostalgiya, yaxud irəliyə baxış məqamları bədii mətnin bütöv quruluşuna xələl gətirmədən oxucunu müxtəlif zaman labirintlərində, rakurslarında gəzişməyə sövq edir. Bu roman-dilogiyada XX əsrin ikinci yarısına məxsus Azərbaycanın tarixinə dair,oxucusunun düşüncə dünyasını aydınlaşdıran, maraqlı faktlar, unudulmaz duyğular, müəllifin şirinli-acılı obyektif, reallıqla sıx əlaqəli xatirələri, təəssüratları öz əksini tapıb. İdrak və sağlam düşüncənin məhsulu olan bu memuar roman-dilogiya, əslində, xalqımızın ən məsum, ən saf, ən pak adamlarının ədəbi-bədii müstəvidə təqdimatıdır... İstər sadə kənd adamları olsun, istər tələbəlik illərindəki tələbə dostlar, qhum-qonşular, istərsə də iş yoldşları... Məsələn, bu real obrazlar qalereyasının bir qismini xatırladaq - Bakıda-Sumqayıtda Tikintitirestinin rəis müavini, mühəndis ata - İrac Əlizadə, ana- Züleyxa xanım, qardaşı Ağası (bunun haqqında heç danlşmır) Şəhla xanım (məşhur müğənni Şövkət Məmmədovanın proobrazıdır), onun əri Yaqub (Yakov Lyubarski, Xızı rayonunun birinci katibi Əlməmməd Alışov, Zöhrabkəndin kolxoz sədri Ağalar kişi, kənd adamlarından - Qırtıq Seyid Fatma, Çoban Ağayəhya, arabaçı Həmid kişi, Fətəli baba, Mehdi kişi, Məhəmməd müəllim, Böyükağa kişi, Eynulla kişi, Muradın dayıları - Yarməmməd dayı, Məmmədəli dayı, Altağcda yaşayan rus əsilli Yekaterina (Katya) Pavlovna, Fomin Kostya, Qudni, nənəsi Dürrə arvad, xalası Gülarə, Kəsirə, Hürzad, Hüseynbala, Hüseynağa, Ağabəy, Lətif, Əsədulla, Qaçaq Bayram, Nəcməddin kişi, Atikə qarı, Əzizağa, Ağalar, Dəstəgül, Partkom Hədi, Keçəl Şahbala, Heybətağa, İmran, Əli, Sabir müəllim, Məşədi Əli kişi, Molla Badam xala (kəndin qadın mollası), Lağlağ Zərnişan, Gülbacı xala, Pənah müəllim, Xəccə bacı, Sifadə müəllim, Cavid müəllim, Molla Xanəhməd, Güləhməd, Balahümmət, Xeyrənisə arvad və s. Bu adlar sırası, adlar sistemi də, Xızı camaatının sosial yönümndən, insanların mahiyyətindən, xasiyyətindən, peşəsindən, xarakterindən müəyyən informasiya verir... İndi bu qoşa - mürəkkəb adlar uşaqlara adda-budda qoyulur, əksəriyyəti arxaikləşibdir. Lakin Azərbaycan şəxs adları sistemində tarixiliyi qorumaq baxımından məişətimizin ayrılmaz dəyərli faktlarıdır... Muradın uşaqlıq və yeniyetməlik çağlarının bu adamlarının hal-əhvallarının, iş-güclərinin təsvirlərini oxuduqca, məndə, nədənsə, Şəhriyarın "Heydərbaba" poeması ilə assosiativ səsləşmə əhvalı yarandı... Mənim də, elə o dövrü yaşamış adamların da, tanıdığı, çoxdan itirdiyi adamlar təsəvvürdə yenidən canlandı, mübarəkabadlıqla xatırlandı...







Beləliklə, adlarını çəkdiyimiz, çəkəcəyimiz bütün bu həyatdan alınmış gerçək obrazlar silsiləsi, obrazlar qalereyası fərdi xarakterləri, rəftar və davranışları ilə bir-birindən fərqlənən, təmiz, saf milli koloritə malik zəhmətkeş, halallığa tapınan insanlardır, eyni həyatı yaşasalar da, öz maraqlı, özünəməxsus taleləri ilə yaddaşa həkk olunurlar.

Romanda mövcudluğunun 100 illiyini arxada qoymuş qocaman Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o vaxtkı V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu) elmi-tədris, müəllim-tələbə mühiti təsvir edilir. Elmimizin, ali-pedaqoji həyatımızın flaqmanlarından, ağsaqallarından olan Mirzə Feyzulla Qasımzadədən, İsmayıl Şıxlıdan, Məmmədhüseyn Təhmasibdən, Mirzə Ələkbər Sabirin yadigarı Məmmədsəlim Tahirlidən, Mirzə Cavaddan, Paşa Əfəndiyevdən, Əbdül Əlizadə dən, Əbdüləzəl Dəmirçizadədən, Əhəd Əhmədovdan, Mürsəl Həkimovdan,Məmmədbağır Həyatzadənin, Cəfər İbrahimovun, Qəzənfər Kazımovunvə digərlərinin parlaq obrazları xatirələr cığırında, bir daha, canlandırılır...

Roman-trilogiyanın mühüm bir estetik xətti də, təsvir etdiyi dövrün dürüst - çatışan və çatışmayan, pozitiv və neqativ cəhətləri ilə elmi-maarifçi mahiyyətinin mənzərəsini yarada bilməsidir. Bu romanın ideya-estetik qayəsinin əsas istiqamət ləri nüfuzlu milli prioritetlərin təbliğinə-təsdiqinə-təşviqinə, reinteqrasi yasınayönəlikdir... Həmçinin, Məmməd Əliyev keçmiş və keçdiyimiz dövrün yenidən təsviri ilə müasir, müstəqil, azad vətəndaş cəmiyyətinin rolunun əhəmiyyətinə, məna və mahiyyətinə işıq şüləyi salır, yəni, biz haradan haraya gəlmişik sualına cavab vermiş olur...

ƏSƏRİN EHTİVA ELƏDİYİ BİR ÇOX ESTETİK-FƏLSƏFİ, İLAHİ-BƏŞƏRİ, DİNİ-MƏNƏVİ SİSTEMLƏR VƏHDƏTİ ONUN ÇOX CİDDİ ŞÜURLU-NƏZƏRİ ƏSASLARA SÖYKƏNDİYİNİ BƏLLİ EDİR. YAZIÇI MÜXTƏLİF SİTUASİYALARDA POMAN-DİLOGİYADA HADİSƏ VƏ PROSESLƏRLƏ ASSOSİASİYA YARADARAQ YADDAŞI MÜNTƏZƏM OLARAQ TƏZƏLƏYİR, KEÇMİŞİ İNDİYƏ, MÜASSİR DÖVRƏ, MƏKANA, İNDİKİ ZAMANA DAŞIYIR...

Tək-tək olsa da (yaxşılar tək-tək olur) elə bədii əsərlərimiz var ki, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və nəsildən-nəslə çatdırılmasında, xalqımızın hazırkı mədəni simasının müəyyənləşməsində müstəsna rol oynamışdır. Məmnuniyyətlə, Məmməd Əliyevin bu dilogiya xatirə-romanını belə əsərlərdən hesab edirəm və əsər bədii-estetik özünüifadənin mükəmməl nümunələrindən biri kimi ədəbiyyatımızın məhz milli faktına çevrilir...

*(s o n)*